# Şalva PAPUAŞVİLİ: "COP29-un Azərbaycanda keçirilməsi böyük tarixi hadisədir"

**"COP29 kimi mötəbər beynəlxalq tədbirin Azərbaycanda keçirilməsi böyük tarixi hadisədir. Bu, eyni zamanda Azərbaycanın dünyada yüksək nüfuzunun göstəricisidir".**

Bu sözləri AZƏRTAC-a Gürcüstan parlamentinin Sədri Şalva Papuaşvili söyləyib. Onun sözlərinə görə, bu, eyni zamanda Azərbaycanın beynəlxalq tədbirləri keçirməkdə böyük təcrübəsinin olduğunu nümayiş etdirir.

"Mən Azərbaycana COP29-u yüksək səviyyədə və uğurla keçirməsini arzu edirəm. Bakıda olarkən müxtəlif məkanlarda bu böyük tədbirə hazırlıq işlərinin necə getdiyini gördüm. Ona görə də, əminəm ki, bu konfrans ən yüksək səviyyədə keçiriləcək və tarixə həkk olunacaq", - deyən Ş.Papuaşvili bu işdə Azərbaycana uğurlar arzulayıb.

Azərbaycan.- 2024.- 6 noyabr (№ 245).- S.9.